# Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarına dəyişikliklər və əlavələr edilməsi və bəzi qanunvericilik aktlarının qüvvədən düşmüş hesab edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 27 oktyabr tarixli, 7 nömrəli fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 10, maddə 615; 2001-ci il, № 6, maddə 408; 2002-ci il, № 5, maddə 270; 2003-cü il, № 10, maddə 567) ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə»nin 5.16-cı bəndində *«hüquqpozmalara»* sözü *«xətalara»* sözü ilə, 5.19-cu bəndində *«hüquqpozmalar»* sözü *«xətalar»* sözü ilə əvəz edilsin.

2. «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası prezidentinin 1998-ci il 22 noyabr tarixli, 24 nömrəli fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 11, maddə 666; 2003-cü il, № 10, maddələr 546, 571) 2-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

2.1. üçüncü abzasdan *«və 82-ci maddəsinin 2-ci hissəsində»* sözləri çıxarılsın;

2.2. dördüncü abzasdan *«79-cu maddəsinin 3-cü bəndində, 82-ci maddəsinin 4-cü bəndində,»* sözləri və *«12-ci bəndinin qeydində «protokol» sözündən sonra»* sözləri çıxarılsın.

2.3. on beşinci abzas çıxarılsın.

3. Azərbaycan Respublikası prezidentinin 1999-cu il 26 iyul tarixli, 161 nömrəli fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 7, maddə 423; 2003-cü il, № 10, maddə 585) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında Əsasnamə»nin 11.15-ci bəndində *«hüquqpozmalar»* sözü *«xətalar»* sözü ilə əvəz edilsin.

4. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV.***

***Bakı şəhəri, 3 avqust 2004-cü il.***

***№ 109.***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (4 avqust 2004-cü il, № 179) ( «VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 avqust 2004-cü il, № 8, maddə 617) («VneshExpertService» LLC).***

*© VneshExpertService LLC*